Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Əbədi - bədii fikir tariximiz azərbaycançılıq ideyasının mənbələrindən biri kimi - Cəlil Məmmədquluzadə...

**XIX əsr Azərbaycan ziyalılarının, maarifçilərinin Azərbaycançılıq ideyasının milli ideologiya kimi formalaşmasında, insanların şüurunda, milli mənlik hissində pərvəriş tapmasında müstəsna rolları olub. Bu bir həqiqətdir ki, XIX-XX əsrlərdə yaşayan maarifpərvər ziyalılar olan həmin şəxsiyyətlər Azərbaycan xalqının həyatına böyük təkan verib.**

## III yazı

Bu şəxsiyyətlərin tərkibi yalnız böyük yazıçı və şairlər, publisistlərdən ibarət deyildi, onlar eyni zamanda böyük filosof və ictimai-siyasi xadimlər idi. Bu klassiklər Azərbaycan milli-fəlsəfi fikrinin formalaşmasında konkret işlər görürdülər. Anadilli ədəbiyyatımızın, klassiklərimizin irsinin milli məfkurəyə xidmət missiyasını daşıdığı bəlli məsələdir.

Azərbaycanın mütəfəkkir oğlu, öz hekayələri, povest və pyesləri, yaradıcısı olduğu "Molla Nəsrəddin" jurnalı ilə milli məfkurəyə, azərbaycançılığın yayılmasına çalışan Cəlil Məmmədquluzadə böyük-böyük ideyaların reallaşmasına vasitəçi olub.

Mirzə Cəlil yaradıcılığı və Azərbaycançılıq ideyası birbirini aydın şəkildə tamamlayır. Mirzə Cəlilin yaradıcılığından Azərbaycançılıq ideyası xüsusi xəttlə keçir.

Sirr deyil ki, Mirzə Cəlilə, onun yaradıcılığına, bu böyük ədibin, ziyalının Azərbaycançılıq ideologiyasının təbliğində oynadığı rola ən böyük qiyməti xalqımızın böyük oğlu Heydər Əliyev "Biz Cəlil Məmmədquluzadəyə sadəcə bir ədəbiyyatçı kimi, yazıçı kimi, publisist kimi yox, eyni zamanda böyük ictimai xadim, böyük siyasətçi kimi yanaşmalıyıq. Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə Azərbaycanın ictimai-siyasi həyatının inkişafında, milli ruhun yüksəlməsində böyük rol oynamışdır. Bu təkcə ədəbiyyatda, mədəniyyətdə deyil, siyasətdə də, ictimai həyatımızda da böyük xidmətdir" fikrilə verib.

Cəlil Məmmədquluzadənin Ev Muzeyinin böyük elmi işçisi Yeganə xanım Məmmədova müəllifi olduğu "Yaşadanlar" kitabçasında yazır ki, Cəlil Məmmədquluzadə (Mirzə Cəlil) Vətən sevgisindən doğulan bir mütəfəkkirdir: "Mirzə Cəlil Vətən sevgisindən doğulmuş bir qəhrəmandır... Milli şüurun oyanışında, milli ruhun formalaşmasında Cəlil Məmmədquluzadə və onun "Molla Nəsrəddin"i əvəzsiz məktəb rolu oynayıb. Mirzə Cəlil qaranlıqda işıq axtara-axtara bütün ömrü uzunu yol gedir və işığı yalnız xalqın maariflənməsində gördü. Təsadüfi deyil ki, bədii ədəbiyyatımızda Azərbaycanın xəritəsi ilk dəfə Mirzə Cəlilin əsərlərində əks olunub".

Y.Məmmədovanın fikrincə, Cəlil Məmmədquluzadə yaradıcılığında azərbaycançılıq əsas xətti təşkil edib. Muzeyin böyük elmi işçisi hesab edir ki, o, yalnız "Molla Nəsrəddin"lə azərbaycançılığın daha geniş arealda yayılması üçün böyük işlər görüb: "Mirzə Cəlil yaradıcılığında azərbaycançılıq ideyasının bədii ifadə üsulları filologiya elmləri namizədi Allahverdi Məmmədlinin tədqiqatlarında daha çox orijinal yöndə əks etdirilir..."

Cəlil Məmmədquluzadənin "Anamın kitabı" əsəri ana dilimizi əzilməkdən, məhv olmaqdan xilas edən, onun şirinliyini, gərəkliyini, əbədi yaşamağa layiq olduğunu özündə ehtiva edən bir əsərdir. Üç qardaşın hərəsi bir dildə danışır, ana dilini bəyənməyən qardaşların timsalında Mirzə Cəlil ana dilinə xor baxanlara dərs verir. Azərbaycançılıq ideologiyasının davamlı təbliğatçısı olan Cəlil Məmmədquluzadə öz əsərləri, çıxardığı jurnalla sovet ideologiyasına qarşı idi. Ölənə qədər bu ideologiya ilə barışmayan Mirzə Cəlil həyatının sonuna yaxın bütün əlyazmalarını yandırır. Mirzə Cəlilşünasların fikrincə, onun əlyazmalarını yandırmasının əsl səbəbi evi isindirmək deyildi, söhbət Mirzə Cəlilin bolşevizm ideologiyasına etirazından gedir. Tədqiqatçılar yazır ki, Sovet ideologiyası ilə barışmayan Mirzə Cəlilin getdikcə əsəbləri pozulur. 1931-ci ilin dekabrında evin soyuq olduğunu bəhanə edib bütün əlyazmalarını yandırır və "rahat yatır".

Tədqiqatçılar qeyd edir ki, "Molla Nəsrəddin"in əsas proqramına çevrilən "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım" fikri özündə böyük bir milli mahiyyət daşıyıb. Azərbaycançılığa xidmət edən bu fikir öz ətrafında minlərlə Azərbaycan türkünü birləşdirməyə müvəffəq olub.

Yenidən Y.Məmmədovanın fikirlərinə istinad edirik:" Mirzə Cəlilin əsərlərində, felyetonlarında, məqalələrində rastlaşdığımız ana, ana dili ifadələri Vətən, azərbaycançılıq anlamını daşıyıb. Ədib göstərirdi ki, Vətənini, xalqını, dilini canı qədər qoruyan millət üçün heç bir təhlükə qorxulu deyil, çünki millətin üç sevgili balası var: Vətən, Millət və Dil. Vətənpərvər xalq isə məğlubedilməzdir".

Fəlsəfə doktoru Vahid Ömərov isə yazır ki, azərbaycançılıq ideyasının inkişafında mühüm rol oynayan yaradıcı ziyalılarımızdan biri Cəlil Məmmədquluzadə olub. Cəlil Məmmədquluzadənin nəşr etdirdiyi "Molla Nəsrəddin" jurnalı azərbaycançılıq ideyalarının alovlu təbliğatçısı idi: "...

Doğma ana dilini müqəddəs sayan "Molla Nəsrəddin" bir əsr bundan öncə Azərbaycanla bağlı çox mətləbləri birbaşa "Azərbaycan" adı ilə insanların "üzünə ucadan söyləyib", ilk dəfə olaraq, cəmi azərbaycanlıları "Azərbaycan matəmgahı"nın dərdinə əlac axtarmağa hazırlayıb. Jurnalın 1909-cu il 2 saylı "Necə qan ağlamasın daş bu gün, qırxılır gör neçə min baş bu gün!" adlı yazısından oxuyuruq: "Bu gün Kərbəla meydanı-Azərbaycandakı vətənpərvərlik meydanıdır. Hər kimin ürəyində bir cüzi din, namus, vətən hissi varsa, oranın qeydinə qalmalıdır! Axitmalı qanlarımız, ehsan etməli pullarımız varsa - gözümüzün qabağında ürəklər parçalayan Azərbaycan matəmgahı durur".

Alim bildirir ki, "Molla Nəsrəddin" Azərbaycan idealının mənasını azadlığında, mədəni tərəqqisində, müstəqil dövlətçiliyinə nail olmasında gördü.

Tədqiqatçılar milli ideyanın axtarışında C.Məmmədquluzadənin rolunu yüksək qiymətləndirir. Alim qeyd edir ki, azərbaycanlıların bir millət kimi formalaşmasının tarixi çətinlikləri ondan ibarət olub ki, onun xalqı illərlə coğrafi, iqtisadi, siyasi və mənəvi cəhətdən parçalanıb, yadellilərə qarşı mübarizə prosesində sayca azalıb, maddi və mənəvi həyatı kasadlaşıb. Bütün bunlara baxmayaraq, millətimizin mövcudluğu bu gün bir reallıqdır. Lakin Azərbaycan xalqı bu mübarizə prosesində daha mətinləşib, bütün məhrumiyyətlərə sinə gərib və bugünkü millət halına gəlib çıxa bilib. Azərbaycan milli ideyasının yaranmasında H.B.Zərdabinin maarifçilik, C.Məmmədquluzadənin və ümumən "Molla Nəsrəddin"in demokratizmi və azərbaycançılığı, demokratik respublika tərəfindən əsası qoyulan vahid Azərbaycan vətənsevərliyi



ideyaları, sovet dövrü ziyalılarının milli oriyentasiya istiqamətindəki konstruktiv müddəaları mühüm rol oynayıb.

Filologiya üzrə elmlər doktoru, professor Allahverdi Məmmədli qeyd edir ki, Mollanəsrəddinçilik azərbaycançılıq ideyasını reallaşdırmaq üçün təlim kitabıdır. "Bu təlim kitabının baş müəllifi Cəlil Məmmədquluzadədir. Azərbaycanda tənqidi-realist ədəbiyyatın və mətbuatın inkişaf istiqamətlərini və xüsusiyyətlərini müəyyən edən ideya-estetik prinsiplər mollanəsrəddinçilikdə öz əksini tapmışdır.

Böyük demokrat ədib Cəlil Məmmədquluzadə (1869-1932) 37 yaşında ikən "Molla Nəsrəddin"i yaratdı, jurnal qapananda isə o, 62 yaşın içində idi. Həm bu 25 ilin publisistika çərçivəsində, həm də ondan əvvəlki ədəbi yaradıcılığı ilə Azərbaycan ədəbiyyatı tarixində silinməz cığırlar açdı: satirik ədəbiyyatın, satirik publisistikanın, karikatura sənətinin əsasını qoydu, ilk rəngli şəkilli jurnal yaratdı, kiçik hekayənin böyük ustadı oldu, Azərbaycan ədəbiyyatında "Molla Nəsrəddin" ədəbi məktəbinin, tənqidi realizmin banisi kimi şöhrət qazandı, bir sözlə, milli satirik ədəbiyyatın mollanəsrəddinçilik ədəbi təlimini formalaşdırdı, bununla da azərbaycançılıq ideyasının ədəbiyyatda və publisistikada, ictimai fikirdə əsas yaradıcılarından biri kimi milli qan yaddaşımızda əbədilik qazandı.

"Molla Nəsrəddin" jurnalında Azərbaycan nəsrinin, şeirinin, publisistikasının, karikaturasının əbədiyaşar nümunələri öz əksini tapmışdır. Bu əsərlər öz dövründə müasirləri üçün ədəbi məktəb rolunu oynamış, indi də oynayır və gələcəkdə də bu missiyanı yerinə yetirəcək...

Mollanəsrəddinçilik təlimi "Molla Nəsrəddin" ədəbi məktəbinin proqramıdır.

"Molla Nəsrəddin" ədəbi məktəbinin bütöv yaradıcılıq proqramı bu möhtəşəm təlim kitabında dolğun əksini tapmışdır. Proqramın əsasını isə milli müstəqillik və azadlıq uğrunda mübarizə təşkil edir. "Molla Nəsrəddin" ədəbi məktəbinin nümayəndələri başda Cəlil Məmmədquluzadə olmaqla milli istiqlala bir ordudan ziyadə xidmət göstərmişlər. Bu mənada "Molla Nəsrəddin" jurnalı Azərbaycan xalqının ən böyük istiqlal kitabıdır. Yaxud milli istiqlal uğrunda mübarizə dövrün digər axınları ilə müqayisədə daha çox mollanəsrəddinçilikdən keçir.

Mollanəsrəddinçilər ictimai satiranın, gülüşün gücündən maksimum yararlanmaq, bunun vasitəsilə də cəmiyyəti dəyişmək, inkişaf etdirmək istəyirdilər. Onlar həm də demokratik ideyaları-insan hüquq və azadlıqlarını ədəbiyyatda və publisistikada əks etdirmiş, ictimai fikrə aşılamaq missiyasını uğurla yerinə yetirmişlər.

Mollanəsrəddinçilik - mollanəsrəddinçilərin özünəməxsus yaradıcılığı və bu yaradıcılıqda əks olunan azərbaycançılıqdır. Mollanəsrəddinçiliyin ideya əsasında azərbay-cançılıq məsləki dayanır. Bunu mollanəsrəddinçiliyin strateji məqsədi də sübut edir. Mollanəsrəddinçiliyin məqsədi millətin özünüdərkinə, azadlığına, tərəqqisinə nail olmaqdır.

Xalqı milli istiqlala qovuşdurmaq mollanəsrəddinçilərin əsas məqsədi olmuşdur. Məhz bu səbəbdən xalqı müstəqillik və azadlıq uğrunda mübarizəyə hazırlamaq və sövq etmək mollanəsrəddinçilik təliminin ana xəttini təşkil edir. Bu ana xəttin reallaşdırılması üçün birinci millətin özünəqayıdış prosesini yönləndirmək lazım idi. Sonra onun özünüdərkinə yardımçı olmaq, milləti ayıltmaq və siyasi oyanışını təmin etmək lazım idi. Bütün bunları mollanəsrəddinçilər sistemli olaraq həyata keçirməyə, vahid məcraya salmağa nail oldular. Mollanəsrəddinçilik - xalqın milli-mənəvi özünüdərkinin, millətin siyasi oyanışı və ayıqlığının hərəkətverici qüvvəsidir".

A.Məmmədlinin fikrincə, Cəlil Məmmədquluzadə yaradıcılığında məmləkət və millət ideyalarının ifadəsi publisistikasında dolğun əks olunub. O, vurğulayır ki, Mirzə Cəlilin yaradıcılığında Azərbaycan məmləkəti ideyasına bir neçə mühüm bucaqdan yanaşmaq olar: 1. Azərbaycan məmləkətinin tarixi ərazi bütövlüyü; 2.Azərbaycan məmləkətinə vətəndaş məhəbbəti; 3.Azərbaycan məmləkətini sivil görmək arzusu.

"Azərbaycan məmləkətinin tarixi ərazi bütövlüyü onun əsərlərində özünü açıq göstərir. Xüsusilə, publisistikasında. Publisist "Xoş təqrir" felyetonunda Araz çayının Azərbaycanı iki hissəyə ayırmasını nağılçının dili ilə belə mənalandırır: Araz deyir: "Mən yaman olsaydım, İrana sərhəd olmaz idim!" Bu kiçik nağıl parçasında Arazın bütöv məmləkət üstündə ayrılıq ağrısı öz ifadəsini tapmışdır.

Ədibin azərbaycançılıq ideyası, Azərbaycan məmləkətinin tarixi ərazisi və bütövlüyü haqqındakı fikirləri "Azərbaycan" məqaləsində daha qabarıqdır:

" ...dilimin adı türk-Azərbaycan dilidir, ...Vətənim də Azərbaycan vilayətidir.

- Haradır Azərbaycan?

- Azərbaycanın çox hissəsi İrandadır ki, mərkəzi ibarət olsun Təbriz şəhərindən; qalan hissələri də Gilandan tutmuş, qədim Rusiya hökumətilə Osmanlı hökuməti daxillərindədir ki, bizim Qafqazın böyük parçası ilə Osmanlı Kürdüstanından və Bayaziddən ibarət olsun". Vətəndaş ədibin çağrışı belədir: "Vətən, vətən, vətən, Dil, dil, dil, Millət, millət, millət! Dəxi bu dairələrdən kənar bəni-nöi bəşər üçün özgə nicat yolu yoxdur".

"Azərbaycan" məqaləsi ədəbiyyatşünaslıqda həm də "Azərbaycan" məmləkəti coğrafiyasının vətəndaş ədib Cəlil Məmmədquluzdanin mahir qələmi ilə çəkilmiş nadir publisist xəritəsi" kimi qiymətləndirilmişdir.

Ədib Azərbaycanın bütövlüyünün böyük carçısı idi...

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**